# Qətiyyətli addım, milli iradənin ifadəsi

*Ötən əsrin 90-cı illəri ölkəmizin ictimai-siyasi həyatında mürəkkəb və gərgin situasiya hökm sürürdü. Həmin dövrdə Naxçıvanın blokada şəraitində olması muxtar respublikada vəziyyəti olduqca çətinləşdirmişdi. Sosial-iqtisadi böhran günü-gündən daha da dərinləşirdi, ölkədən təcrid olunmuş Naxçıvan, taleyin ümidinə buraxılmışdı.*

1990-cı ilin iyulunda ümummilli lider Heydər Əliyevin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıtması muxtar respublikanın əhalisi tərəfindən böyük çoşqu ilə qarşılandı. Bu tarixi hadisə ölkəmizin nicat yolunun, ulu öndərin xilaskarlıq missiyasının başlanğıcı oldu.

1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə xalq ümummilli lider Heydər Əliyevin namizədliyini irəli sürərək muxtar respublikanın, bütövlükdə ölkəmizin azadlığını və suverenliyini məhz dahi şəxsiyyətin yenidən siyasi hakimiyyətə qayıdışında gördü. Ulu öndərin Azərbaycan və Naxçıvan parlamentlərinə deputat seçilməsi müasir dövlətçiliyimizdə tarixi hadisə oldu.

Bu dövrdə SSRİ-də milli hərəkatları zorakılıqla yatırtmaq cəhdləri, Sovet İttifaqının dağılması, digər hadisələr respublikamızda siyasi məkanının real vəziyyətini müəyyənləşdirdi. 1988-ci ildən başlayaraq, 1993-cü ilin ortalarınadək iqtidarın siyasətindəki qarmaqarışıqlıq, vəzifə hərisliyi ağır sosial-siyasi sarsıntılara gətirib çıxardı.

1991-ci ilin əvvəllərində SSRİ-nin qorunub saxlanılmasına, keçmiş sovet hakimiyyətinə qarşı milli azadlıq hərəkatının boğulmasına cəhdlər edilirdi. Həmin il martın 7-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetində Sovetlər İttifaqının saxlanılması barədə referendum keçirilməsi haqqında məsələ müzakirə olunarkən dahi şəxsiyyət Heydər Əliyev keçmiş SSRİ-də, eləcə də Azərbaycanda yaranmış ictimai- siyasi vəziyyəti təhlil edərək Sovet imperiyasının süquta doğru getdiyini tutarlı arqumentlərlə əsaslandırdı. Ulu öndər ölkəmizin müstəqilliyi üçün lazımi tədbirlərin görülməsinin vacibliyini vurğuladı. Uzaqgörən siyasi xadim Heydər Əliyevin və müstəqillik ideyası ətrafında birləşmiş milli qüvvələrin ciddi etirazlarına baxmayaraq, Azərbaycan parlamenti keçmiş SSRİ-nin saxlanılması barədə referendumda iştirak haqqında qərar qəbul etdi. Bu, milli azadlığı, müstəqilliyi güzəştə getmək, xalqın siyasi taleyini - dövlətin müqəddəratını konyuktur maraqlara qurban vermək idi. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "SSRİ-nin saxlanılmasına dair ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi barədə" qərar qəbul edildi. Ulu öndər qeyd edirdi ki, ölkəmizin yeni ittifaqın tərkibinə daxil olması yanlış fikirdir: "Naxçıvan parlamenti özünün sessiyalarında Azərbaycanın müstəqilliyi barəsində dəfələrlə məsələ qaldırıb. Naxçıvan 17 martda - yeni ittifaq yaranması haqqında referendumda iştirak etməyib və yeni ittifaqın yaranmasının əleyhinədir, Azərbaycan Respublikasının yeni bir ittifaqa girməsinin tamamilə əleyhinədir".

Respublikanın keçmiş rəhbərliyinin göstərişi ilə Ali Sovetin sessiyasında Heydər Əliyevin əleyhinə çıxışlar oldu. Hətta qərar qəbul olundu ki, komissiya yaradılsın və ulu öndərin Azərbaycanda rəhbər olduğu zaman bütün fəaliyyəti yoxlanılsın. Lakin müdrik dövlət xadimi, dahi şəxsiyyət dövlətçilik maraqlarını əsas götürərək öz sözünü qətiyyətlə və birmənalı şəkildə dedi: "Sovetlər İttifaqı dağılır və dağılmalıdır. Azərbaycan heç bir yeni İttifaqa girməməlidir və Azərbaycan Sovetlər İttifaqının saxlanması ilə əlaqədar olan referendumda iştirak etməməlidir". Bu, milli iradənin ifadəsi olmaqla yanaşı, Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında qətiyyətli lider kimi tarixi-siyasi məsuliyyətinin göstəricisi idi.

Dahi lider Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən önəmli hadisələrindəndir. Ümummilli lider gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla muxtar respublikanın qurtuluşunu, dirçəlişini təmin etdi. Onun rəhbərliyi ilə 26 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına münasibətlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı barədə" qərar qəbul olundu. Bu nailiyyətlərin hər biri dahi şəxsiyyətin uzaqgörən siyasətinin, qətiyyətinin, cəsarətinin bariz ifadəsi idi.

Ümummilli lider atdığı qətiyyətli addımlarla xalqının xilaskarı oldu, ölkəmizin müstəqilliyini qoruyub saxladı və yeni inkişaf üfüqləri açdı. Məhz buna görə də ulu öndər 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərində xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçildi. Ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi. Xüsusilə də 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, həmçinin ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik xarici siyasət kursu sayəsində ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra isə ölkə iqtisadiyyatı dünya standartlarına uyğun inkişaf etməyə başladı, önəmli əməkdaşlıq layihələri gerçəkləşdirildi. Bunlarla yanaşı, keçmiş Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atıldı, məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Ümummilli liderin beynəlxalq tədbirlərdə, sammitlərdə bu mövzuda apardığı danışıqlar nəticəsində Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin tənqid edildiyi qətnamələr qəbul olundu.

**Bayram SALMANOV,**
**"Respublika".**